

Bəxtiyar MUSTAFAYEV

## DAĞLAR

Ey qədim dünyanın, qədim varlığı,
Sədd çəkib durubsuz arxalı dağlar.
Sürmədi Süleyman bu sultanlığı,
Yaşarsız min belə, ilqarlı dağlar.

Vulkanlar qəlbini ox kimi deşdi,
Haykırdı, gurladı, axırı söndü.
Sən yenə yaşadın, o isə öldü,
Əbədi varlıqsan, vəfalı dağlar.

Zirvələrin qalın qara bürünər,
Qaşların üstündə duman görünər.
Kirpiyin qrovdan sürmə götürər,
Gəlin kimi gözəl, vüsallı dağlar.

Yaylaqların gözəl kimi bəzəkli,
Laləzardı donu güllü-çiçəkli.
Oylaqları turac, qazlı, ördəkli,
Ceyranlı, cüyürlü, marallı dağlar.

Koroğlu məskəni Çənlibel oldu,
Babəkin səngəri burda quruldu.
Sən oldun Nəbinin yaylağı, yurdu,
Əyilməz, basılmaz sərdarlı dağlar.

Neçə igidlərin məskəni oldun,
Xanların, bəylərin zindanı oldun.
Yoxsulun, yazığın pənahı oldun,
Arxasa onlara arxalı dağlar.

Sən ustad lələsən, biz də öyrənən,
Sən əkib gedənsən, biz isə dərən.
Sən yol göstərənsən, biz də ki gələn,
Düşmərik heç səndən aralı, dağlar.

Şahlar qədər ondan daha varlısan,
Rüstəm-zal biləkli, adlı, sanlısan,
Yusif kimi gözəl ay camallısan,
Qızlar kimi qaşı hilallı, dağlar.

Bəxtiyaram, canım sizlərə qurban,
Nə çoxdur sizləri yad edib yazan.
Yenə yazacaqlar ötdükcə zaman,
Ey sözlü-söhbətli, nağıllı, dağlar.